# Şirvanda Vətən müharibəsi şəhidi Kamran Fərəcovun xatirəsi anılıb




**Şirvandakı Şəhidlər xiyabanında şəhid Kamran İlqar oğlu Fərəcovun anım gününə həsr olunmuş tədbir keçirilib.**

ŞİH-nin başçısı İlqar Abbasov şəhidin doğmalarına başsağlığı verərək səbir diləyib, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun düşmən üzərində qazandığı parlaq Qələbədən, Vətən müharibəsində Azərbaycan oğullarının göstərdiyi şücaət və qəhrəmanlıq nümunələrindən söhbət açıb. Həmçinin şəhid və qazi ailələrinə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan bəhs edərək Şirvan şəhərində də hər bir şəhid ailəsinin və müharibə iştirakçısının probleminə həssaslıqla yanaşıldığını diqqətə çatdırıb.

Şəhid Kamran Fərəcov 1996-ci il fevralın 14-də Şirvan şəhərində anadan olub. Şəhər 11 nömrəli tam orta məktəbi bitirib. Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsində xidmət edib. Vətən müharibəsi zamanı Murovdağ, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Hadrut və Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak edib, 24 oktyabr 2020-ci ildə şəhidlik zirvəsinə ucalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarında qarşıya qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Kamran Fərəcov "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 31 oktyabr (№233).- S.15.